# Şəmsi Vəfadarın poetik dünyası



**Balayar Sadiq**

Müasir Azərbaycan poeziyasında məxsusi yaradıcılıq manerası, poetik təfəkkürünün zənginliyi, bədii düşüncələrinin təravəti ilə seçilən istedadlı şairlərdən biri Şəmsi Vəfadardır. Zəngin söz aləmi, bədii predmetə yanaşma özəlliyi, düşüncə genişliyi, cəmiyyətə münasibəti, duyğularının təbiiliyi onun poetik özünəməxsusluğunu şərtləndirir.

"Səni ömrümə yazmışam" yeni şeirlər kitabı ilə oxucuların görüşünə gələn Şəmsi Vəfadar öz yaradıcılıq dəst-xəttinə sadiq qalıb.

Zaman sübut edib ki, şairin üslub fərdiyyəti yaradıcılığının başlıca indeksi olmaqla bərabər, həm də bədii nümunənin, bədii əsərin uzunömürlü olmasını təmin edən əsas amillərdəndir. Şəmsi Vəfadarın yaradıcılığında bədii fikrin inkişaf mərhələlərini əyaniləşdirən bir vasitə kimi onun fərdi üslubu, həm də şairin gerçəkliyin obyektiv təsvirində, dünyanın poetik dərkində, qavrayışında hansı sənətkarlıq prinsiplərinə əsaslandığını, nəticədə onun mənsub olduğu yaradıcılıq metodunu da əyaniləşdirir. Çünki şairin yaradıcılıq məxsusiyyəti, poetik obyektin inikas üslubu, bədii detala yanaşma prinsipləri, dünyagörüşünün, fərdi duyumunun istiqamətləri məhz fərdi üslubun araşdırılması zamanı üzə çıxır.

"Səni ömrümə yazmışam" poetik toplusundakı şeirlər Şəmsi Vəfadarın yaradıcılıq uğuru kimi böyük səciyyə daşıyır.

Onun poeziya aləmini yüksək bədii təsvir və ifadə gözəlliklərinin, səmimi və təbii duyğuların əks olunduğu poetik tablolar qalereyası adlandırmaq olar. "Anasızlar" silsilə şeirləri bədii idrakını genişliyini ehtiva etməklə yanaşı, həm də bədii nümunələrdə milli-mənəvi dəyərlərin poetik inikası, forma və məzmunun vəhdətindəki modern özünüifadə bacarığı bədii təfəkkürünün zənginliyinə və orijinallığına dəlalət edir.

*"Ata" laylasıyla gedər yuxuya,*
*Qəm oxunar*
*gözlərində.*
*"Ana" sözü gizlənər*
*sözlərində.*

Şəmsi Vəfadarın vətənpərvərlik mövzusunda qələmə aldığı əsərlər də poetik dolğunluğu ilə poeziyamızın uğuru kimi səciyyəvidir. Yurdumuzun Qarabağ ağrısını poetik detallarla söz aynasında işıqlandırması ilə oxucunu dərdin bir gün yeniləcəyinə inandırır. Şairin "Qarabağ" şeirindəki bədii ümumiləşdirmə bədii-ictimai mündəricəsi baxımından diqqət çəkir:

*"Qarabağa can vermiş,*
*Gör nə qədər şəhid var!*
*Onların ruhu belə*
*Hər gün üsyana qalxar.*
*Balaca körpələr də*
*Bu kəlmənin başından*
*Durub dünyaya baxar".*

Körpələrin də "Qarabağ" kəlməsindən dünyaya baxması şairin vətənpərvərlik duyğularının çağırışı kimi diqqətəlayiqdir. Şeirin ictimai-fəlsəfi qayəsi daha dərin mətləblərin, - yurda bağlılığın fəlsəfi məzmununu sərgiləyir.

Şəmsi Vəfadarın şeirləri daha çox gerçəkliklə, reallıqla bağlıdır. Bu poetik nümunələrdə həyatın səsi, zamanın nəfəsi, həmçinin insan ruhunun lirik-psixoloji məqamları bədii detallarla, idiomatik ifadələrlə əks olunur. Şeirlərdə həqiqət duyğusu, ədalət yanğısı, sevən ürəyin həsrət notları poetik düşüncənin başlıca məramına çevrilir. Şəmsi Vəfadar dünyaya, həyata, cəmiyyətə geniş təfəkkür işığında nəzər salan şairdir. Onun şeir və poemasında oxucu dünyanı dərk etməyə çalışan bir şairin düşüncə, fikir dünyası ilə tanışlığına məmnun olur.

Şairin şeirlərinin lirik qəhrəmanı müşahidə qabiliyyəti ilə fərqlənir.




Onun fərdi poetik siması, təkcə yazdığı şeirlərin üslub xüsusiyyətlərində deyil, həm də hadisələrə yanaşmasında, onları seçməsində və dəyərləndirməsində, lirik "mən"in əhvali-ruhiyyəsini təbii və səmimi boyalarla canlandırmasındadır.

"Sən gəlin köçən gün..." şeiri şairin həsrət, intizar duyğularının poetik ifadələrlə ehtiva etməsinə güzgü tutur. Sevən ürəyin həsrət odunu, yanğısını misralarda duyur oxucu.

*"Sənə çalınan toy mənim eşqimin,*
*Matəmi olacaq, yası olacaq.*
*İllər dolansa da, aylar ötsə də,*
*Sənə olan eşqim cavan qalacaq".*

Lirik-psixoloji durumun poetik detallarla təbii ifadəsi oxucunu duyğulandırır. Şairin ruhundakı intonasiyanın təravəti poetik düşüncənin, bədii fikrin ifadəliliyinə rəng qatır.

"Səni ömrümə yazmışam" poetik toplusu şair Şəmsi Vəfadarın yaradıcılıq uğurudur.